İŞIĞIN SİMVOLU

Mən akademik Akif Musayevi belə görürəm

Nə vaxtdı ki, ürəyimdə bir yazı yazıram... Və nə vaxtdı ki, bu yazını yazıb qurtara bilmirəm. Bunun da səbəbini götür-qoy edəndə ağlıma ilk gələn bu olur ki, mən bu yazını hardan başlayıb harda nöqtəsini qoyacağımı tapmaqda çətinlik çəkirəm. Düzdü, bir söz adamı olaraq aşıq Alının məşhur misralarından da başlaya bilər. Və yaxud da son illərin dillər əzbəri olan "yaşın nə fərqi var" fikrindən də. Amma yazının ünvanlandığı Şəxsiyyət sözün bütün və gerçək mənasında elə bir Kişidi ki, elə bir Alimdi ki, mən sözümü onun ictimai, elmi çəkisinə uyğunlaşdırmalıyam. Onun şəxsiyyəti, onun alimliyi və ən vacibi onun Halal İnsanlığı bu yazıda görünməlidi. Bax, bu mənada ehtiyat edirəm. Ürəyimdə yazdıqlarımı elə ürəyimdə də cırıb bir kənara atıram. İnanın ki, bu yazını yazmaq mənə o qədər çətin, o qədər məsuliyyətli gəlir ki, mən bir anlıq fikrimdən daşınmaq, sadəcə onu bir cümlə ilə təbrik edib sözümə nöqtə qoymaq istəyirəm. Amma...

Adını eşidib, elmi fəaliyyətindən mətbuat vasitəsilə tanış olduğum bu İNSANla ilk tanışlığım dəyərli yazıçımız, əsl xalq adamı Seyran Səxavətin qardaşı Xanlar Xanlarovun yas mərasimində oldu. **Məni bu İNSANa Seyran müəllim təqdim etdi. Daha doğrusu, məndən soruşdu ki, Akif müəllimi tanıyırsan? Doğrusu, mən də bir az tərəddüd içərisində ehtiyatla dedim ki, barəsində eşitmişəm. Amma şəxsi tanışlığım olmayıb...**

Və beləcə, başladı bizim tanışlığımız. Mən hörmətli akademikimiz, çox dəyərli eloğlum Hətəm Quliyevlə Seyran Səxavətin və Akif müəllimin söhbətlərini dinləyə-dinləyə içimdə Xanlar Xanlarova da çox səmimi bir rəhmət oxudum. Axı, bizim qarşılaşmağımız və mənim barəsində həmişə xoş sözlər eşidib adıyla qürur duyduğum, sözün bütün gerçəkliyi ilə deyim ki, bir nur topası olan İNSANla tanış olurdum. İndinin özündə də həmin o anı xatırlayanda, yenə o rəhmət dilimə gəlir, yenə o anları təkrar yaşayıram və yenə də Akif müəllimin ona tərəf uzatdığım əlimi necə doğmalıqla sıxdığımı bütün varlığımla, bütün ruhumla duyub yaşayıram.

Elə həmin gündən başlayaraq mən Akif müəllimin həyat yolunu daha dərindən izləməyə başladım. Müxtəlif insanlardan, hətta akademiyanın özünün səhifəsindən onun həyatıyla bağlı orada yazılanları, keçdiyi yolu nöqtə-vergülünə qədər öyrənməyə çalışdım. Xüsusilə bu işdə mənə akademik Hətəm Quliyev, yazıçı Seyran Səxavət, eləcə də dostum Əlövsət müəllim, həmçinin Umud Rəhimoğlu yardımçı oldular. Görüşlərimizin birində Vaqif Bəhmənli də söylədi ki, Akif müəllim çox böyük ziyalıdı, çox böyük alimdi.

Mən bu sözləri Seyran Səxavətin dilindən də eşitmişdim, Umudun da, Əlövsət müəllimin də. Hətta bir dəfə millət vəkili, yazıçı Aqil Abbas da Akif müəllimi möhkəm-möhkəm qucaqlayıb dedi ki, siz çox dəyərli kişisiniz, çox gözəl ağsaqqalsınız, çox böyük alimsiniz...

İndi özünüz təsəvvür edin, içərisinə düşdüyüm bu aura məni dinc buraxarmı?! Heç dinc də buraxmadı. Arayıb-axtardım və əlimin altında olan mənbələrdən öyrəndim ki, Akif müəllim 1977-ci ildə Moskva şəhərində, özü də SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutunun İxtisaslaşdırılmış Elmi Şurasında "İqtisadi-riyazi üsullar" ixtisası üzrə namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi alıb. Gəlin etiraf edək ki, həmin illərdə, həmin o yerlərdə alimlik adı almaq, istedadını sübut etmək və bacarığına hər kəsi inandırmaq hər kişinin hünəri deyildi. Hər özünü alim sayanın, özünü istedadlı sayanın boyuna biçilən titul deyildi. Bax, elə həmin o Moskvanın özündə Akif Musayev təkcə özünün kimliyini, qabiliyyətini, istedadını, elmi hünərini deyil, həm də Azərbaycan alimlərinin nəyə qadir olduqlarını ortaya qoydu. Bundan bir xeyli sonra o, bu dəfə Gürcüstanda, onun paytaxtında yerləşən Tbilisi Dövlət Universitetində doktorluğunu müdafiə edərək dünyaya sübut etdi ki, Azərbaycanda kamil bir elm fədaisi, elm adamı var, yaşayır və yaşayacaqdır. Onun iqtisad elmləri doktoru kimi özünütəsdiqi artıq o demək idi ki, Azərbaycan Milli Elmlər Akademiyasının daha bir müxbir üzvü bizim sıramızdadı, bizim gözümüzün önündədi. Dünyanın aparıcı dövlətlərində, xüsusilə ABŞ-da, Rusiyada, Fransada, Almaniyada, İtaliyada, eləcə də İranda, Türkiyədə, Macarıstanda, Latviyada və digər məmləkətlərdə Akif Musayevin elmi uğurları, ortaya qoyduğu nəzəriyyə birmənalı şəkildə qəbul olunmaqla yanaşı, həm də ən müasir, ən yeni elmi nəzəriyyə kimi qiymətləndirilir, dəyərləndirilir. Elmi konfranslardakı çıxışları onun təkcə nəzəriyyəçi yox, araşdırmaçı yox, həm də nəzəriyyəsini ortaya qoyduğu elmi kəşfin həyata tətbiqinə də nail olmaq imkanlarını göstərdi. Yeri gəlmişkən, xatırladım ki, Ümummilli Liderimiz hələ 1994-cü ilin

sentyabr ayının 24-də imzaladığı fərmanla Respublika Nazirlər Kabineti Yanında Dövlət Ali Ekspert Komissiyası yaratdı. Həmin komissiyanın üzvlərindən biri də məhz Akif Musayev idi. Bu komissiyyanın tərkibində o, özəl təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və dövlət qeydiyyatı mexanizmlərinin yaradılması, həyata keçirilməsi ilə bağlı xeyli işlər gördü. Məhz onun tövsiyələri, onun elmi baxışları bu komissiyaya imkan verdi ki, heç bir qarşıdurmaya, heç bir ictimai-sosial gərginliyə yol vermədən özəl təhsil müəssisələrinin yaradılması haqqında qərar qəbul olunsun. Məhz bu qərardan sonra ölkədə mövcud olan özəl təhsildəki böhran aradan qaldırıldı.

Akif müəllimlə söhbətlərimizin birində eşitdiyim fakt bu gün də yadımdadı. Mətbuatla, ədəbiyyatla bağlı fikir mübadiləsi edirdik. Onun son dövr Azərbaycan ədəbiyyatı ilə bağlı söylədiyi fikir məni təəccübləndirdi. Etiraf edim ki, həmin ana qədər Akif müəllimin hardasa vaxt tapıb hansısa bir romanı, şeiri oxuduğunu təsəvvürümə gətirməmişdim. Lakin vurğulayanda ki, Elçinin son əsərini, "Azərbaycan" jurnalında çıxmış "Baş" romanını çox maraqla oxudum və onda nə boyda səhv etdiyimi içimdə bir fikir kimi boğub öldürdüm. Axı elmi konfranslar, çalışdığı elmi sahə, çiynindəki vəzifə yükü, xarici səfərlər, ailə, ev, yaxınların müxtəlif məclisləri, rəsmi dəvətlər... bütün bunların içərisində bədii əsər oxumağa, mətbuatı izləməyə vaxt ayırmaq, hətta elektron mediaya da yer vermək o qədər də asan iş deyil.

Yaxşı yadımdadı, ötən ilin yayı idi. Umud Rəhimoğlunun rəhbərlik etdiyi Avrasiya Mətbuat Fondunun tədbiri keçirilirdi. Fondun dəvətiylə Nobel mükafatı laureatı olan Məhəmməd Yunusun "Kasıbların bankı" kitabının təqdimatı və özü ilə görüş keçirilirdi. Elə fondun həyətində açıq havada təşkil olunmuş həmin görüşdə qarşılaşdıq Akif müəllimlə. Və söhbət əsnasında öyrəndim ki, mənim yalnız adını eşitdiyim bu Nobel mükafatçısı olan qonağımız barəsində o nələri bilirmiş. Onun dünya çapındakı yeri, ortaya qoyduğu bilgisi Akif müəllim üçün təkcə qonağa hörmət və yaxud onu dəvət edənə ehtiram deyil. Bu həm də elmə, nəzəriyyəyə ayrılan diqqətdi. Üstəlik, həmin o nəzəriyyənin Akif müəllim üçün doğmalığı idi. Çünki həmin nəzəriyyənin də şah damarı iqtisadiyyatdan keçirdi, iqtisadiyyata söykənirdi. Deməli, Akif müəllim iqtisadi-riyazi nəzəriyyə olan hər yerdə iqtisadi, riyazi təcrübə olan hər yerdə və bir də bütövlükdə elm və ədəbiyyat olan hər məkanda öz yerindədi. Onun bu yeri elmlər doktoru, AMEA-nın müxbir üzvü olmasından keçmir. Bu yer həm də onun halal haqqıdı. Və...

Adətən alimlər barəsində, tanınmış şəxslər haqqında nəsə yazanda bu şəxsin həyat yolu ilə yanaşı, onun yaradıcılıq nümunələrinin də, kitablarının da, aldığı mükafatların da adları göstərilir, sayılır. Amma mən Akif müəllimin bələd olduğu həyatındakı uğurlarını saymaq, elmi məqalələrinin, əsərlərinin tələbələr üçün yazdığı dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, monoqrafiyalarının, metodik göstərişlərinin, məruzələrinin və sairənin adını çəkmirəm. Çünki bunlar bir alim üçün, bir alim ömrü üçün kifayətdən də kifayətdi. Amma burda bir məqam var ki, saydıqlarım Azərbaycan üçün deyil, həm də dünya elmi üçündü. Ona görə də həmin vurğuladığım yaradıcılıq uğurları dünyanın ən böyük elmi müəssisələrində yayılıb, tirajlanıb və bu gün də yayılıb tirajlanmaqdadı.

Maraqlı burasıdı ki, hələ 1967-ci ildə Akif müəllim Azərbaycan Respublikasının MEA-nın Kibernetika İnstitutunda fəaliyyətə başlasa da, sonra Moskvada aspirant kimi özünü sübut etdi. Artıq o illərdən məlum oldu ki, Akif Fərhad oğlu Musayev elmimizin təzə səhifəsini yazmağa başlayır. Açdığı yeni səhifə özündən sonra gələnlərin üzünə açılan qapı olacaqdı. O qapıdan içəri girənlər məhz onun artıq elmi məxəzə çevrilən yaradıcılığından bəhrələnirlər və bəhrələnəcəklər.

Həyatını iqtisadçı-alim, mükəmməl pedaqoq kimi təsdiq etmiş akademik Akif Musayev Azərbaycan adlı məmləkətdə respublikanın vergi sahəsində də elmi bilgilərin, məktəbin əsasını qoymuşdu. Məhz onun bu sahədəki fəaliyyəti verginin elmi əsaslarının işlənib hazırlanmasına, müasir dünya səviyyəsinə gətirilməsinə şərait yaradıb. Maraqlıdı ki, bu gün iqtisadiyyatımızın hansı sahəsinə çevrilib baxsaq, orda akademik Akif Musayevin izini, nəfəsini, sözünü xidmətini görəcəyik. Mən də bir qələm adamı olaraq içimdə abidəsini ucaltdığım, ürəyimdə adıyla, işiylə qürur duyduğum Akif müəllimin 70 illiyi ilə bağlı AMEA-nın qəbul etdiyi qərarla tanış olanda daxilən rahatlandım. Çünki layiq olduğu diqqəti öz sahibinin qapısını döyməsi çox gözəldi, həm də bir az kövrək duyğudu. İnanıram ki, mənim yazdığım bu əl boyda yazı Akif müəllimin bütün xidmətlərinin çox cüzi bir hissəsidi. Daha doğrusu, mənim ona olan güvəncimin, sevgimin ifadəsinin çox kiçik bir damlasıdı. Mən bütün sevgimi, bütün sayğılarımı inanın ki, yaza bilmədim. Ona görə ki, Akif müəllimin özünü, həyatının, xidmətlərini torpağa bağlılığını, ailəyə sədaqətini yazmaq üçün mən çox kiçik adamam. Elə bu durduğum, olduğum nöqtədən sadəcə bütün ürəyimlə deyirəm:

- Yetmiş yaşın mübarək, Akif müəllim!

Əbülfət MƏDƏTOĞLU